# Konstitusiya və suverenliyin təminatının Naxçıvan mərhələsi

**Azərbaycan xalqının dövlətçilik tarixində Naxçıvan təkcə coğrafi bölgə deyil, həm də milli iradənin, azadlıq mübarizəsinin və müstəqilliyin dayaq nöqtəsi olaraq xüsusi yer tutur. Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyası müstəqil dövlətimizin hüquqi əsaslarını təsbit etməklə yanaşı, milli suverenlik və azadlıq dəyərlərimizin rəmzinə çevrildi. Bu hüquqi sənədin ruhunda isə Naxçıvanın xüsusi yeri var. Çünki suverenliyimizə gedən yolun təməli həm də məhz bu torpaqdan atılıb.**

1990-cı illərin əvvəllərində Azərbaycan xalqı böyük çətinliklərlə üz-üzə qalmışdı. Bu dövrdə Naxçıvan xalqımızın suverenlik arzularının alovlandığı bir məkana çevrildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda atılan addımlar Azərbaycanın gələcək müstəqillik yolunu müəyyənləşdirdi. O dövrdə qəbul edilən qərarlar, xüsusilə də üçrəngli bayrağımızın yenidən dövlət rəmzi kimi təsdiqi milli iradənin əbədi olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu addımlar bugünkü Konstitusiyamızın ruhunda yaşayan suverenlik və müstəqillik prinsiplərinin təməlini təşkil etdi.

Azərbaycan Konstitusiyasının maddələri arasında Naxçıvan Muxtar Respublikasının xüsusi statusu həm hüquqi, həm də tarixi baxımdan ədalətin təcəssümüdür. Bu status Naxçıvanın təkcə coğrafi bölgə deyil, həm də milli birliyin və hüquqi dövlətçiliyimizin təminatında mühüm rol oynadığını göstərir.



Prezident İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın hüquqi və siyasi tarixində mühüm bir mərhələdir. Bu il yalnız hüquqi sənədlərin yubileyinin qeyd edilməsi üçün deyil, həm də milli birliyimizin və dövlətçiliyimizin daha da gücləndirilməsi üçün xüsusi bir fürsət olaraq nəzərdə tutulur. "Konstitusiya və Suverenlik İli" xalqımızın azadlıq, bərabərlik və hüquq prinsiplərinin təbliği ilə yanaşı, onun tarixi köklərini bir daha vurğulamaq üçün ideal zamandır.

Naxçıvan "Konstitusiya və Suverenlik İli" çərçivəsində xüsusi diqqət mərkəzində olacaq. Çünki bu diyar yalnız Konstitusiyada təsbit edilmiş hüquqi statusa malik deyil, həm də xalqımızın dövlətçilik tarixində, azadlıq mübarizəsində və suverenlik ideyalarının formalaşmasında misilsiz rol oynayıb. Hər bir tədbirdə Naxçıvanın bu rolu vurğulanacaq, xalqımızın bu torpağa olan sevgisi bir daha nümayiş etdiriləcək.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Naxçıvana səfərləri zamanı Əshabi-Kəhf ziyarəti xalqımızın mənəvi dəyərlərinə və milli ruhuna verdikləri önəmin bir daha göstəricisi oldu. Əshabi-Kəhf xalqımızın inancının və mənəvi dözümünün simvolu kimi xüsusi əhəmiyyət daşıyan bir məkandır. Bu müqəddəs ziyarətgah təkcə dini yer deyil, həm də milli iradənin və dövlətçilik ruhunun gücləndiyi bir məkan olaraq xalqın yaddaşında yaşayır. Liderimizin və birinci xanımın bu ziyarəti xalqın qəlbində dərin izlər buraxdı və onların milli dəyərlərimizə olan bağlılığını bir daha təsdiqlədi.

Naxçıvan vasitəsilə reallaşacaq Zəngəzur dəhlizi eyni zamanda Əshabi-Kəhfdən başlayan bu mənəvi və tarixi yolun davamı olacaq. Bu dəhliz təkcə coğrafi arteriya deyil, həm də Azərbaycan xalqının milli birliyinə və iqtisadi gücünə gedən yoldur. Naxçıvan camaatı bu dəhlizin reallaşması ilə xalqımızın milli birliyinin möhkəmlənəcəyinə əmindir. Onlar bu yolda liderlərini qarşılayıb qurbanlar kəsəcəklərinə və dualar edəcəklərinə tam inanırlar. Çünki bu yol yalnız iqtisadi deyil, həm də mənəvi bir missiyanı yerinə yetirəcək - Azərbaycanın hər qarış torpağını vahid bir çətir altında birləşdirəcək.

Əshabi-Kəhfdən başlayan mənəvi yolun Zəngəzur dəhlizinə qədər uzanması xalqımızın hüquqi və mənəvi birliyini təmin edən bir simvola çevrilib. Bu yol təkcə coğrafi ələqələri deyil, həm də xalqımızın milli ruhunu və dövlətçilik ideyalarını birləşdirir.

Konstitusiyamızda Naxçıvanın təsbit edilən xüsusi statusu onun milli dövlətçilik tarixində oynadığı rolu bir daha təsdiqləyir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində Naxçıvanın bu rolu geniş şəkildə təbliğ ediləcək. Naxçıvanın Azərbaycan dövlətçiliyinə verdiyi töhfələr, bu torpağın həm hüquqi, həm də milli əhəmiyyəti bir daha ön plana çıxarılacaq.

Naxçıvan yalnız Konstitusiyamızın maddələrində təsbit edilmiş hüquqi bir varlıq deyil, xalqımızın azadlıq mübarizəsinin rəmzi və suverenliyimizin qalasıdır. Əshabi-Kəhfdən Zəngəzur dəhlizinə qədər uzanan yolun hər addımı Azərbaycanın dövlətçilik ruhunu əks etdirir. "Konstitusiya və Suverenlik İli" həm də Naxçıvanın bu müqəddəs yolda oynadığı rolu əbədiləşdirəcəkdir.

**Sevinc ABBASOVA,**
***Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix elmləri doktoru, professor***

Azərbaycan.-2025.- 8 yanvar (№2).- S.11.